Azərbaycan Memarlıq və İnşaat Universiteti - 40

Ulu öndərin Azərbaycan təhsilinə bəxş etdiyi Universitet

Gülçöhrə MƏMMƏDOVA,
memarlıq doktoru, professor,
Əməkdar memar,
AzMİU-nun rektoru.

Ötən əsrin əvvəlində Bakıda başlanan neft "bumu" tikinti sahəsində canlanma yaratmış, misli görünməyən irəliləyişlərə səbəb olmuşdu. Neftdən gələn pullar hesabına varlanan yerli burjuaziyanın paytaxtda tikdirdiyi, Qərb arxitekturasının elementlərini özündə daşıyan möhtəşəm yaşayış binaları, mehmanxanalar Bakının simasını gündən-günə dəyişirdi. Zaman, dövr, tikinti işlərinin miqyasının böyüməsi, yeni inşaat texnologiyalarının və materialların, daha mürəkkəb memarlıq kompozisiyalarının tətbiqi texniki peşələrin önəmini artırır, yeni tipli ziyalı təbəqəsinin - milli mühəndis və texniki kadrların yetişməsini zəruri edirdi. Həmin dönəmdə texniki təhsil verən məktəblərin və milli kadrların yoxluğu ucbatından paytaxtda keçirilən böyük tikinti işlərinə xaricdən, Avropadan əcnəbi mütəxəssislər cəlb olunurdu. Məhz belə bir vaxtda - 1920-ci ildə Nəriman Nərimanovun imzaladığı dekretlə Bakıda Politexnik İnstitutu yaradıldı və onun nəzdində mühəndis inşaat fakültəsi açıldı.

Birinci tədris ilində 1135 tələbənin təhsil aldığı institutu 3 nəfər bitirdi, sonrakı illərdə bu say xeyli artdı, belə ki, 1926/27-ci ildə isə 289 gənc mühəndis diplomuna layiq görüldü. 1923-cü ildə Bakı Politexnik İnstitutunun adı dəyişdirilib M.Əzizbəyov adına Azərbaycan Neft İnstitutu adlandırıldı. 30-cu illərə doğru Azərbaycanda sənayenin sürətli inkişafı təkcə neft deyil, digər sahələr üçün də mühəndis kadrlarının hazırlanmasını tələb etdiyindən, respublikada genişprofilli sənaye institutunun yaradılması məsələsi aktuallaşırdı. Beləliklə, 1934-cü ildə Azərbaycan Neft İnstitutu maşınqayırma, energetika və s. sahələr üçün də mühəndis kadrları hazırlayan Azərbaycan Sənaye İnstitutuna çevrildi. Neftmədən, energetika, mühəndis-iqtisad fakültəsilə yanaşı, institut memarlıq-tikinti fakültəsində "yaşayış-mülki tikinti", "sənaye tikintisi və memarlıq" ixtisasları üzrə kadrlar hazırlayırdı. 15 illik fəaliyyəti dövründə burada 344 nəfər inşaatçı-memar ixtisası üzrə ali təhsil aldı. 1932-ci ildə ASİ-nin mühəndis-inşaat fakültəsinin bazasında müstəqil Azərbaycan İnşaat İnstitutu (Azİİ) yaradıldı. İki il ərzində tələbələrinin sayının 900-ə çatmasına baxmayaraq, 1934-cü ildə, Azİİ yenidən Azərbaycan Sənaye İnstitutunun tərkibinə memarlıq-inşaat fakültəsi statusunda qatıldı. 1939-1941-ci illərdə ümummilli lider Heydər Əliyev də bu fakültənin tələbəsi olmuşdur. Bu illərdə Azərbaycanın xalq təsərrüfatının tikinti mühəndislərinə olan ehtiyacları məhz bu fakültənin məzunları hesabına ödənilirdi, habelə onlar Azərbaycan Sənaye İnstitutunun diplomları ilə SSRİ-nin Uzaq Şərq bölgəsində, Qazaxıstan SSR-də və digər regionlarda işləyir, iri tikinti obyektlərinə, layihə təşkilatlarına rəhbərlik edirdilər.

1941/45-ci illərin müharibə dövründə institut kadr hazırlığını uğurla davam etdirməklə yanaşı, ön və arxa cəbhəyə də kömək etdi, 60 diplomçu-tələbəsi Samur-Dəvəçi kanalının tikintisində çalışdı. Müharibədən sonra ASİ inkişafının yeni mərhələsinə qədəm qoydu, o illərdə İnstitutun strukturunda inşaat - memarlıq fakültəsi də fəaliyyət göstərirdi. 1950-ci ildə SSRİ Ali Təhsil Nazirliyinin əmri ilə İnstitutun inşaat - memarlıq, nəqliyyat fakültələri, mexanika fakültəsinin bir hissəsi və Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun Hidromeliorasiya fakültəsinin bazasında mülki tikinti, nəqliyyat və maşınqayırma sahələri üçün mütəxəssis hazırlayan Azərbaycan Politexnik İnstitutu (AzPİ) yaradıldı.

1969-cu ildə xalqımızın dəyərli oğlu Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi təyin olunmasından sonra respublikamızda sosial-iqtisadi həyatın bütün sahələrində hiss olunan dirçəliş ali təhsil sisteminə də təsir göstərdi. Təsadüfi deyil ki, bu dövr memarlıq və inşaat sahəsində intibah dövrü kimi dəyərləndirilir. Məhz bu dönəmdə başlanan irimiqyaslı tikinti-quruculuq işləri qurucu və yaradıcı gənc milli kadrların hazırlanması vəzifəsini aktuallaşdırdı, respublikada savadlı və ixtisaslı memar və inşaat mühəndisləri hazırlığı aparmaq üçün xüsusi ali təhsil ocağının yaradılması zərurətini ortaya qoydu. 1975-ci ildə Heydər Əliyevin təşəbbüsü, SSRİ Nazirlər Sovetinin qərarıyla Çingiz İldırım adına Azərbaycan Politexnik İnstitutunun memarlıq, inşaat, hidromeliorasiya və nəqliyyat fakültələrinin bazasında Azərbaycan İnşaat Mühəndisləri İnstitutu (AzİMİ) təsis edildi. AzİMİ-nin tarixinə qurucu rektor kimi düşən təcrübəli təhsil təşkilatçısı, professor Sənan Mustafayev institutun rektoru təyin olundu.

Ulu öndərin yadigarı olan universitetimizin tarixi onun adıyla sıx bağlıdır. Heydər Əliyev hələ keçən əsrin 70-ci illərində gələcəkdə Azərbaycanın iqtisadi müstəqilliyini təmin etmək məqsədilə iqtisadiyyatın bütün sahələrində olduğu kimi, memarlıq və inşaat sahəsində də ixtisaslı kadrların vacibliyini önəmsəyərək Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun yaradılmasına qərar verdi. Bu, dahi şəxsiyyətin uzaqgörənliyi, öz millətinə böyük sevgisinin təzahürü, onun gələcəyinə hesablanmış uğurlu düşüncənin nəticəsiydi. Məhz onun tövsiyələri sayəsində bu tədris ocağı illər ərzində böyük nailiyyətlərə imza atdı, bu günümüzə qədər böyük inkişaf yolu keçdi.

Az bir vaxtda yaradılmış institutun maddi-texniki bazası qurulmuşdu, pedaqoji potensialı gücləndirildi, memar və inşaat mühəndisi ixtisasının cəmiyyətdə nüfuzu artdı. 1975/78-ci illərdə AzİMİ-nin strukturu müəyyənləşdi, yeni fakültə və şöbələr yaradıldı, bu illərdə institutun yeni kollektivi yarandı. 1976-cı ildə İnstitutda birinci buraxılış oldu və ixtisaslaşdırılmış Dövlət İmtahan Komissiyasının qərarıyla 12 ixtisas üzrə 941 tələbəyə ali təhsilli mühəndis diplomları verildi. Tezliklə institutun 4 fakültəsinin sırasına yeni bir sanitariya texnikası fakültəsi də əlavə olundu. AzİMİ Azərbaycan SSR Nazirlər Sovetinin 20 iyun 1975-ci il Qərarına əsasən AzPİ-nin 2, 3, 6 saylı tədris korpuslarında və "İstilik-qaz təchizatı və ventilyasiya" kafedrasının binasında yerləşdirildi, həmçinin, AzPİ-nin 1400 yerlik yataqxana binaları, tikilməkdə olan 21 min kv.metrlik yeni tədris-laboratoriya korpusu da yeni yaradılmış İnstituta verildi. İnstitutun maddi-texniki bazasının formalaşdırılması vaxtlarında tədrisin və elmi-tədqiqat işlərinin təmin olunması üçün bir sıra laboratoriyalar yenidən quruldu, yeni İnstitutun kitabxanası üçün Əsas binaya (indiki 3 saylı tədris binası) artırma əlavə edildi. 1984-cü ilin fevralında müasir tələblərə cavab verən, birinci mərtəbəsində 345 yerlik Akt zalı olan yeni yataqxana korpusu istifadəyə verildi. 1985-ci ilin dekabrında Hidromeliorasiya fakültəsinin tədris korpusunun tikintisi başa çatdırıldı. 1989-cu ildə isə 13 mərtəbəli əsas korpus istismara verildi. İnstitutun bir çox bölmələri müasir tədris laboratoriyaları və tədqiqat avadanlıqları, maşın və mexanizmlərlə təchiz olunaraq fəaliyyətlərini davam etdirdilər.

Keçən əsrin 90-cı illərində başlayan ictimai-siyasi tələtümlər, demokratik dəyişikliklər təhsil sahəsinə də təsirsiz qalmırdı. Respublikamızın həyatında sınaq dövrü kimi tarixə düşən 90-cı illər institut üçün də ağrılı keçir, ölkədə yaşanan böhran və müharibə təhsil sistemində durğunluq və tənəzzülə səbəb olurdu. Ölkədə baş verənlərə biganə qalmayan AzİMİ-nin tələbə və məzunları vətənin müdafiəsinə qalxdı, Qarabağda Vətənin azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı gedən döyüşlərə atıldı. Bu döyüşlərdə institutun tələbəsi, məzunu və əməkdaşı olan 43 nəfər soydaşımız qəhrəmancasına həlak oldu, onlardan 7-nə ölümündən sonra Azərbaycan Respublikasının Milli Qəhrəmanı adı verildi. Universitetimizin fəxri olan milli qəhrəmanlarımız Çingiz Mustafayev, Ramiz Qənbərov, Məzahir Rüstəmov, Kərəm Mirzəyev, Bəylər Ağayev, Kamil Nəsibov, Elman Hüseynovun xatirəsi həmişə ehtiramla yad olunur.

Həmin dönəmdə Nazirlər Kabinetinin 30 aprel 1992-ci il tarixli qərarıyla Azərbaycan İnşaat Mühəndisləri İnstitututuna universitet statusu verildi və bu tədris ocağı Azərbaycan İnşaat Universiteti adlandırıldı. 1995-ci ildə burada memarlıq, tikinti - avtomatlaşdırma, hidrotexniki və meliorasiya tikintisi, yol-inşaat, mühəndis sistemləri və qurğuları, inşaat - texnologiya, tikinti-iqtisadfakültələri fəaliyyət göstərirdi. Eyni zamanda xarici tələbələrlə iş üzrə dekanlıq, xarici vətəndaşlar üçün hazırlıq fakültəsi, ixtisasartırma fakültəsi, aspirantura şöbəsi də fəaliyyət göstərirdi, 1996-cı ildə Universitetin artıq 42 kafedrası vardı.

İllər ötür, zaman dəyişir, müstəqil Azərbaycan Respublikası üçüncü minilliyə qədəm qoyurdu. Sabit ictimai-siyasi duruma, sürətlə inkişaf edən, möhkəmlənən iqtisadiyyat və sosial həyata malik olan, beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınan respublikamızın qarşısında görüləcək işlər sırasında Azərbaycan təhsilinin inkişafı xüsusi əhəmiyyət daşıyırdı. 2000-ci ilin əvvəllərindən başlayaraq Azərbaycan təhsil sistemi islahatlar dövrünə

qədəm qoydu, təsadüfi deyil ki, təkcə 2003/08-ci illərdə təhsilin inkişafına dair 14 dövlət proqramı qəbul olundu və həyata keçirildi. Bu islahatlar təhsil standartlarının yeniləşməsinə, təhsilin məzmununun modernləşməsinə və yeni, daha effektiv qiymətləndirmə sisteminin tətbiq edilməsinə, təhsil prosesinin demokratikləşməsinə yönəldi. Bu proseslər AzİMİ-nin tarixində də dərin izlər buraxdı.

2000-ci ilin iyulun 13-də ulu öndər Heydər Əliyevin imzaladığı sərəncamla universitetin adı dəyişdirilərək Azərbaycan Memarlıq və İnşaat Universiteti adlandırıldı. Həmin dönəmdən başlayaraq AzMİU yeni inkişaf mərhələsinə qədəm qoydu, səmərəli islahatlar vasitəsilə təhsil sistemini beynəlxalq standartlar səviyyəsinə çatdırmaq yolunda mühüm qərarlar qəbul etdi. Bu illərdə Universitetin maddi-texniki bazasını gücləndirmək məqsədilə yeni laboratoriyalar açıldı, təhsilin keyfiyyətinin yüksəldilməsi üçün yeni forma və metodlar işlənib hazırlandı, istehsalatla əlaqələr genişləndirildi. AzMİU-da 2002-ci ildən büdcədən maliyyələşən 5 elmi-tədqiqat laboratoriyası var. İnşaat sektoru üçün mütəxəssis hazırlığı işində yaranmış müəyyən boşluqları aradan qaldırmaq, eləcə də orta ixtisas təhsilini inkişaf etdirmək üçün 2004-cü ildə Universitetin tərkibində İnşaat kolleci yaradılıb və 2005-ci ildən burada 8 ixtisas üzrə mütəxəssis hazırlığına başlanılıb. Eyni zamanda 2005-ci ildən AzMİU-nun nəzdində fəaliyyət göstərən fizika-riyaziyyat təmayüllü liseyi də nəzərə alsaq, demək olar ki, AzMİU təhsilin bütün pillələri üzrə hazırlığını təmin edən təhsil ocağıdır.

Bu gün bakalavr pilləsində 20, magistratura pilləsində 37 ixtisas üzrə kadr hazırlığı aparan Universitetin 8 fakültəsində bakalavr pilləsində 5967, magistratura pilləsində isə 449 tələbə təhsil alır. Xarici vətəndaşların təhsili fakültəsində 14 ölkədən 620 gənc oxuyur, doktoranturada 108 gənc mütəxəssis alimlik dərəcəsinə layiq görülmək üçün çalışır. 2015-ci ildən 3 ixtisas üzrə SABAH qrupları fəaliyyət göstərir, həmin qruplarda 40-dan çox tələbə təhsil alır. Türkiyə Respublikasının 9-cu prezidenti Süleyman Dəmirəl, İsveçrə alimi, professor Marko Laupen, Romualdo Del Bianko fondunun prezidenti Paulo Del Bianko, Almaniyanın Herz-Armaturen şirkətinin prezidenti Gerhard Glinzerer universitetimizin fəxri doktorlarıdır.

AzMİU-da təhsil üç dildə - Azərbaycan, rus və ingilis dillərində aparılır. Tədris prosesində tələbələrin fəallığını artırmaq üçün yeni texnologiya və metodlardan səmərəli istifadə olunur, informasiya texnologiyalarını tətbiq etməklə dərslər interaktiv formada keçirilir, mühazirə mətnləri elektron variantda hazırlanır. 1977-ci ildə yaradılmış, hazırda fondunda 520 minədək ədəbiyyat olan ənənəvi və elektron kitabxana fəaliyyət göstərir, burada 10 minədək elektron jurnal bazası formalaşdırılıb. Tədrisin və elmi-tədqiqat işlərinin inkişafını təmin etmək, tələbə-magistrlərin elmi və bilik potensialını möhkəmləndirmək məqsədilə kitabxanamız Azərbaycan Kitabxana İnformasiya Konsorsiumuna üzv olub. 2009-cu ildən fənlər üzrə dərs vəsaitlərinin, mühazirə mətnlərinin elektron versiyaları işlənib hazırlanıb kitabxana bazasına daxil edilib, hər il abunə olunan 10 minədək elektron jurnal bazası formalaşdırılıb.

Ümummilli lider Heydər Əliyevin siyasətini bütün sahələrdə uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin elmin, ali təhsilin inkişafı, mövcud problemlərin həlli istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlər ölkəmizin digər ali məktəblərində olduğu kimi Universitetimizdə də dəstəklənir. AzMİU-nun inkişafında İlham Əliyevin ölkədə yaratdığı yeniləşmə, müasirləşmə, yaradıcılıq atmosferinin böyük rolu danılmazdır. Ali memarlıq və inşaat təhsilinin yeni vəzifələri bilavasitə dövlət başçısının təhsilin və elmin müasir tələblər səviyyəsində inkişafı üçün həyata keçirdiyi islahatlarla sıx bağlıdır. Möhtərəm Prezidentimizin Universitetimizin maddi-texniki bazasının yaxşılaşdırılması, keyfiyyətli təhsil şəraitinin yaradılması barədəki sərəncamları bu ali təhsil ocağında elmi-pedaqoji fəaliyyətin müasir tələblər səviyyəsində aparılması üçün işgüzar mühit yaradır.

2011-ci ildə Universitetdə "Layihə İnstitutu" MMC yaradılıb, sevindirici haldır ki, müxtəlif tenderlərdə qalib olan institutun əməkdaşlarının hazırladıqları layihələr əsasında paytaxtda və regionlarda müxtəlif təyinatlı binalar ucaldılıb. Müasir təhsil sisteminin tələblərinə uyğun olaraq, Universitetin modernləşməsini və fəaliyyətinin genişlənməsini təmin edən yeni struktur bölmələrinin yaranmasına olan ehtiyacı nəzərə alaraq 2013-cü ildə Strateji planlaşdırma və elmi-tədqiqat şöbələrinin, həmçinin Nəşriyyat-poliqrafiya mərkəzinin yaradılmasına qərar vermişik. Strateji planlaşdırma şöbəsi ötən illər ərzində AzMİU-nun inkişafı üçün bir sıra işlər görüb, Paşa Holdinq, Təmiz Şəhər ASC, Aksessuar İnşaat, AEKOM, Holcim, Embavood şirkətlərilə əməkdaşlıq memorandumları imzalanıb, tərəfdaş şirkətlərin maliyyəsi hesabına 3 müasir laboratoriya yaradılıb.

Hazırda professor-müəllim heyətinin sayı 595 nəfər təşkil edir, 74 elmlər doktoru, professor, AMEA-nın həqiqi üzvü, beynəlxalq akademiyaların üzvləri, 581 elmlər namizədi, dosent, assistent və müəllim çalışır. Universitetimizin fəxri sayılan görkəmli alimlərimiz burada öz elmi məktəblərini yaradıblar. Professorlar İbrahim Bəxtiyarovun, Davud Axundovun, Abbas Mustafayevin elmi araşdırmaları ölkəmizin sərhədlərini aşıb, çox uzaqlarda tanınıb və Azərbaycan elminə həmişə şan-şöhrət gətirib. Onlar müxtəlif elm sahələri üzrə alim və pedaqoqlar yetişdirib, Azərbaycanın elm və təhsil xəzinəsini zənginləşdiriblər. Həmin ənənə bu gün də davam etdirilir və təhsil ocağının aparıcı alimləri akademik T.Əliyev, professorlar G.Məmmədova, A.Şərifov, K.Əliyev, İ.Sadıxov, Ə.İsayev, H.Feyziyev, F.Hüseynov, N.Abdullayeva, N.Nağıyev, F.Əliyev, B.Sərdarov, M.Hacıyev, Ə.Əliyev, T.Pənahov və başqaları elmi kadr hazırlığıyla yanaşı, bir sıra böyük elmi və praktiki əhəmiyyəti olan mövzular üzrə tədqiqatlar yerinə yetirirlər. Alimlərimizin uzun illər aparılmış tədqiqatlarının yekunu olaraq ərsəyə gətirdikləri qədim və orta əsrlər dövründən başlayaraq müasir dövrü də əhatə edən Azərbaycan memarlığının tarixi haqqında beşcildlik kitabı Azərbaycan memarlıq elminə çox böyük töhfədir.

Azərbaycan Respublikasında 2009/15-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya və həmin Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramının qəbul edilməsi alimlərimizin elmi-tədqiqat fəaliyyətinin canlanmasına səbəb olub. Elmi-tədqiqat işlərinin və dissertasiya mövzularının prioritet istiqamətlərə yönəldilməsi və onların koordinasiyasının gücləndirilməsi məqsədilə Koordinasiya Şurası yaratmışıq. Bundan sonra AMEA-nın müvafiq İnstitutları ilə əməkdaşlıq gücləndirilib, müəllimlərimizin beynəlxalq jurnallarda dərc etdirdikləri məqalələrin, iştirak etdikləri elmi konfransların sayı xeyli artıb.

Təhsilin keyfiyyətini artırmaq və nəzəri biliklərin təcrübə ilə əlaqəsini möhkəmləndirmək məqsədilə ARDNŞ, AzərSu ASC, FHN, Paşa-İnşaat, AEKOM, ARDNŞ-in Dərin Özüllər Zavodu, AZVİRT MMC, Holcim, Təmiz Şəhər ASC kimi dövlət qurumları, səhmdar cəmiyyətlər və s. tipli iri müəssisələrlə müqavilələr bağlamışıq. Tələbələrimiz istehsalat təcrübələrini respublikanın 80-ə yaxın müxtəlif elmi-tədqiqat və tədris müəssisəsində, zavod və istehsalat mərkəzində, səhmdar cəmiyyətdə, şirkət və məhdud məsuliyyətli cəmiyyətlərdə keçirlər. Yaxşı haldır ki, əməkdaşlıq etdiyimiz dövlət və özəl qurumlar da məhz onlar üçün hazırlanan kadrların nəzəri-təcrübi biliklərinin artması, daha yaxşı mühəndis kadrları işə cəlb etmək üçün bizə yardımçı olurlar.

Fövqəladə Hallar Nazirliyinin maliyyə dəstəyilə 2013-cü ildə yaradılmış "İnşaat konstruksiyalarının komputer modelləşdirilməsi" laboratoriyasında tələbələr "SAP-2000" hesablama kompleksi üzrə konstruksiyaların, bina və qurğuların parametrik hesablanmaları və layihələndirilməsi işləri ilə məşğul olurlar.

2015-ci ildə AzərSu ASC-nin dəstəyilə yaradılmış su təchizatı problemləri üzrə elmi-tədqiqat və tədris laboratoriyasında quraşdırılmış cihazların köməyi ilə içməli və çirkab suların tərkibindəki 40-dək göstəriciləri təyin etmək mümkündür. Holcim Şirkəti ilə birgə yaradılan "Yapışdırıcı materialların və betonların sınağı" laboratoriyası sement və betonun, həmçinin, təqdim edilən texnikanın sınaq işlərinin Avropa standartlarına uyğun yerinə yetirilməsinə imkan verir. Ölkəmizdə ilk dəfə müasir standartlara uyğun "İnşaat konstruksiyalarının müayinəsi və tətbiqi" laboratoriyası Paşa-İnşaatın böyük maliyyə dəstəyilə yaradılıb və ən yeni texniki avadanlıqlarla təchiz edilib.

Son dövrlərdə AzMİU ilə "Təmiz Şəhər" ASC arasında qurulan əməkdaşlıq nəticəsində Ekologiya kafedrasının nəzdində "Təmiz şəhər" mərkəzi formalaşdılıb. İnformasiya-Kommunikasiya Fondunun dəstəyilə başlanğıc mərhələdə kiçik sahibkarlığın yaranması, inkişafı üçün hüquqi məsləhət və digər xidmətlərə dəstək olan "İnnovativ biznes inkubator" mərkəzinin təsis olunması tələbələrin yaradıcılığının və biznes təşəbbüslərinin dəstəklənməsi üçün yaxşı şərait yaradıb.

Prezident İlham Əliyev tərəfindən imzalanmış təhsilin inkişafı üzrə Dövlət Strategiyasında müasir təhsilin keyfiyyət, məzmun, tədris metodikası və idarəçilik sahələrində ali təhsil müəssisələrinin beynəlxalq təcrübədən yaradıcı şəkildə istifadə etməsi təqdir olunur. 2000-ci ildən Avropa təhsil məkanına inteqrasiyanın başlanılması və 2005-ci ildən Bolonya prosesinə keçidin sürətlənməsi ilə AzMİU beynəlxalq layihələrdə iştirak etməyə başlayıb. Hazırda Qara Dəniz Universitetləri Şəbəkəsi, Rusiyanın Memarlıq Elminə Regionlararası Yardım İctimai Təşkilatı (MOOCAO), MDB İnşaat Universitetləri Assosiasiyası, İslam Dünyası Universitetləri Assosiasiyası, İtaliyanın Romualdo Del Bianko Fondu, Fransa Memarlıq Məktəbi, Beynəlxalq Universitetlər Assosiasiyası, Türk Dünyası Mühəndislər və Memarlar Birliyi, Türk Universitetləri Birliyinin üzvüyük. Ali təhsilin modernləşməsini dəstəkləyən və Avropa Universitetləri ilə əməkdaşlıq sahəsinin yaradılmasına kömək göstərən Erasmus proqramları çərçivəsində bir çox beynəlxalq layihələrin həyata keçirilməsində iştirak edirik. Hazırda Avropa Birliyinin 3 TEMPUS layihəsində tərəfdaş kimi iştirakı başa çatdırırıq. Bunlar 2012/15-ci illəri əhatə edən "ENOTES-Azərbaycanda ECDL Milli Operator və Test Mərkəzləri", 2013/15-ci illərə dair "ECONANO - Ekologiya mühəndisliyinin nanotexnologiya əsasında kurikulum islahatı və modernləşdirilməsi" və 2013/16-cı illəri əhatə edən "RETHİNK - Beynəlxalq məlumat mübadiləsi vasitəsilə təhsil islahatı" layihələridir. Bu layihələr çərçivəsində müəllimlərimiz Avropa Birliyi ölkələrinin tərəfdaş universitetlərində qısamüddətli təlim səfərlərində iştirak ediblər.

Kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi məqsədi ilə Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) və AzMİU arasında 2003-cü ildən sıx əməkdaşlıq mövcuddur. Qurumun təşkil etdiyi memarlıq-mühəndislik sahəsinə dair türk dünyası şəhərsalma qurultaylarında, müxtəlif konfrans, seminar və birgə elmi tədbirlərdə mütəmadi təmsil olunuruq. Bu əməkdaşlığı daha da inkişaf etdirmək və genişləndirmək məqsədi ilə Universitetdə Birliyin Azərbaycan təmsilçiliyi açılıb. Türk Dünyası Mühəndislər Birliyinin növbəti qurultayının 2016-cı ildə Bakıda, AzMİU-nun bazasında keçirilməsi qərara alınıb.

Bu gün AzMİU bu və ya digər proqramlar çərçivəsində 80-dək xarici ölkə universitetləri - Monpelye, Sapienza, İstanbul Texniki, Orta Doğu Texniki, Moskva Dövlət İnşaat, Northampton universitetləri və digər nüfuzlu ali təhsil ocaqlarıyla əməkdaşlıq edir. Bu əməkdaşlıq ikili diplom proqramı, əməkdaşlıq müqavilələri, birgə mübadilə proqramları və digər beynəlxalq layihələr əsasında həyata keçirilir. 2012-ci ildən Erasmus-Mundus layihələrinə, 2013-cü ildən isə Türkiyə Respublikasının Mövlanə Mübadilə Proqramına qoşulmuşuq, bu layihələr çərçivəsində 100-dək tələbə və müəllim mübadilə proqramlarında iştirak edib.

1975-ci ildə böyük azərbaycanlı Heydər Əliyevin təşəbbüsüylə həyata vəsiqə qazanan Universitetimiz bu gün 40 yaşını qeyd edir. Aradan keçən bu illər ərzində AzMİU öz nəzdində 8 fakültəsi, 5 elmi-tədqiqat laboratoriyası, layihə institutu, İnşaat kolleci, liseyi ilə fəaliyyət göstərən geniş profilli elm və təhsil ocağına çevrilib. Ali memarlıq və inşaat təhsilinin yükünü çiyinlərinə götürən AzMİU 40 ildə 50 minə yaxın yüksək ixtisaslı memar və inşaatçı kadrlar hazırlayıb. Biz fəxr edirik ki, bu gün Azərbaycanda müxtəlif dövlət və ali idarəetmə strukturlarına rəhbərlik edənlərin içərisində universitetimizin məzunları çoxdur. Elmdə və təhsildə qazandığımız uğurlar, gördüyümüz işlər, əldə etdiyimiz nailiyyətlər, güclü maddi-texniki bazamız bizə təhsil islahatlarının önündə getməyə, ölkəmizin ali təhsil ocaqları arasında bizim Universitetin də öz yeri və adı olduğunu deməyə əsas verir. Vətənimizə, xalqımıza müasir, yenilənən dünyanın tələblərinə cavab verən kadrlar, layiqli vətəndaşlar yetişdirmək, uğurlarının sayını artırmaq üçün AzMİU bu gün də yenilənir, inkişaf edir. ■